# Sarı gəlin

Qədim zamanlarda Azərbaycanın dilbər guşəsi olan əyalətlərindən birində varlı bir xan yaşayırdı. Qılınc gücünə neçə əyaləti birləşdirib cah-calalını artırmışdı. Aranda qışlaqları, dağlıq yerlərdə isə sürülərini otarmaq üçün yaylaqları vardı.. Amma bununla belə heç ürəyi açılmaz, qəm qüssəli görünərdi. Onun bu halı vəzirin gözündən yayınmaz, hər dəfə ona bir cür nəsihət verərdi.

Bir gün o yenə də imarətinin eyvanında durub qəmgin-qəmgin uzaqları seyr edirdi. Bu dəmdə vəziri yaxınlaşıb onun qəlbini ovundurmağa çalışdısa da kefi açılmadı ki, açılmadı. Çox düşünüb-daşındıqdan sonra vəzir ona bir məsləhət verdi:

—Xan sağ olsun, üzün gülmür, qəlbin açılmır, mənim sənə bir məsləhətim var. Əgər istəyirsənsə qəlbin açılsın, uzaq bir ölkəyə səyahətə çıx. Həm qəzib-dolanarsan, həm də başqa xalqların adət-ənənələri, yaşam tərzilə tanış olar, ticarət dövriyyəni də genişləndirərsən.

Bu təklif xanın ağlına batdı. Tezliklə dəvələr yükləndi, yol tədarükü görüldü. Xan bir aylıq səfərə çıxdı. Az getdilər, çox getdilər, nağıllarımızın yüyürük dilində deyildiyi kimi dərə-təpə düz getdilər, neçə şəhər, kənd keçdilər, gəlib bir ölkəyə çıxdılar. Bura xanın xoşuna gəldi.

Xan əmr verdi, şəhərin kənarında çadırlar quruldu. Çadırlarda dincəldilər. Ertəsi gün xan şəhərlə tanışlıq üçün gəzintiyə çıxdı. Uca qəsrlər, geniş, abad küçələr, memarlıq abidələri onu valeh etdi. Gəzə-gəzə bazar meydanına çatdı. Burada qələbəlik idi. Xan da maraqla camaata qoşulub içəri keçdi. Gördüyü mənzərədən mat qaldı. Burada başqa ölkələrdən girov tutulmuş gözəl qızlar nümaymiş etdirilir, qul kimi satılırdı. Qızların hər biri incə və gözəl idi.

Amma namərd, alçaq, nanəcib quldurbaşı qulları elə bir qiymətə satırdı ki, eşidənlər geri çəkilirdi. Xanın gözü bir qızı tutdu. Elə buradaca bir könüldən min könülə vuruldu ona. Bu, incə belli, uca boylu, ala gözlü, sarışın hörüklü bir qız idi. Xan yüksək məbləğ ödəyərək, qızı quldurdan aldı. Bir neçə gün də şəhərdə qalıb ticarətlə məşğul oldu, alış-veriş etdi. Daha bir neçə gün sonra əsabələrinə vətənə dönmək əmrini verdi.

Çadırlar yığıldı, dəvələr yükləndi, karvan geri döndü. Xanın vilayətə dönməsi bütün əyalət əhli tərəfindən sevinclə qarşılandı.

Xan qırx gün, qırx gecə toy çaldırıb qızla evləndi. Onun bütün vücudunu qızıla, ləl-cəvahirata tutub yeni sevgilisini baş kəniz təyin etdi. Onu hamı «Sarı gəlin» adlandırmışdı.

Bu qədər var-dövlət içində Sarı gəlin rahatlıq tapa bilmir, günü-gündən saralır, yuvasından ayrı düşmüş bülbül kimi hey gizli-gizli nalə çəkirdi.

Xan bütün bunları duyur, onu ovundurmaq üçün çarə axtarırdı.

Hər şeyi zaman həll edər—deyiblər atalar. Xanın malikanəsindən bir az aralıda cənnətə bənzər bağı var idi. El arasında bu bağ «Gülüstanı-İrəm» adlanırdı. Bağ uca dağların ətəyində yerləşir, qoynunda bulaqlar qaynayır, dərələrindən çaylar axırdı. Bağda quş uçsa qanad salardı, qatır gəzsə dırnaq. Dünyanın hər yerindən gətirilmiş cürbəcür gül və ağac növləri bağa xüsusi bir rəng qatır, görənləri valeh edirdi.

Xan Sarı gəlini qəm-qüssədən uzaqlaşdırmaq üçün həmin bağdakı imarətə köçürdü ki, bir müddət burada qalsın və könlü açılsın. Gün keçdi, ay dolandı, Sarı gəlin yavaş-yavaş bu mühitə öyrənməyə başladı. Səhər o başdan gün çıxmamış bağı dolanar, bülbüllərin şərqisini dinləyər, zümrüd bulaqların suyunda əl-üzünü yuyar, sarışın, uzun sünbülü saçlarını darayıb hörər, sonra meyvə yığar, qönçə güllərdən bir dəstə bağlardı. Bu iş hər gün təkrarlanardı.

Sizə kimdən deyim, xanın bağbanından. Bağban bağı göz bəbəyi kimi qoruyardı. O, xanın ən etibarlı nökəri idi. Xan ona çox bel bağlar, ondan özünə qarşı heç bir işdə xəyanət gözləməzdi. Bağın qurtaracağında, çayın kənarında bağbanın uca çardağı var idi. Bağban bu çardaqda yatar, dörd tərəfə nəzər çalardı. O, çardaqdan ətrafı yaxşı görsə də kənardan çardaq gözə çarpmazdı.

Bir gün səhər yuxudan oyanıb çardaqdan ətrafa nəzər salanda gözlərinə inana bilmədi. Bağda gözəllikdə tayı-bərabəri olmayan bir pəri gəzirdi. Qız incə belli, uzun boylu, ala gözlü, sünbülsaç, növrəstə ay kimi nurlu idi, daş-qaşlı paltarı gün kimi ətrafa işıq saçırdı. Bağban gördüyü mənzərədən çaşıb huşu başından getdi. Bir neçə vaxt beləcə huşsuz qaldı. Ayılanda ətrafında, heç kəsi görməyib onun bir xəyal, ruh olduğunu zənn etdi.

Ertəsi gün bu mənzərə yenidən təkrarlandı. O, qızı lap yaxından seyr edə bildi. Ona görə ki, qız çayın çahilinə gəlib yığdığı qönçə gülləri sinəsinə sıxaraq, zərif ayaqlarını suya sallamışdı. Topuğa dəyən saçları suda islandığından qız saçını gündə qurudub yenidən hördu, qonçə gülləri sinəsinə sıxaraq oradan uzaqlaşıb malikanəyə girdi.

Bağban indi başa düşdü ki, bu qız xanın kənizlərindən biridir. O, bu gözəl sarışın qıza aşıq olmuşdu. Lakin bu sevdanın heç vaxt gerçəkləşməyəcəyinə əmin idi. Xəyalında qızın sevdası bir müddət gizlincə yaşadı. Nə qıza yaxınlaşa, nə də bir söz deyə bilərdi. Odur ki, qəlbində bəslədiy duyğular muncuq kimi düzülüb misralara döndü, nəğmə olub dodağından qopdu, ahəstə, yanıqlı bir səslə ətrafa yayıldı. Bağban hər gün bu nəğməni oxuyurdu.

Tezliklə bağbanın bağda oxuduğu nəğmə xanın qullağına da çatdı. O, bir gün bir qaravaşını pusquda qoydu.

Sarı gəlin yenə qəmli-qəmli bağda gəzir, qonçə gülləri üzüb bağrına basır, uzaqdan gələn yanıqlı nəğməyə qulaq asır, için-için ağlayırdı. Bağban bağın dərinliyində gəzişərək qəsdən oxuyurdu:

Saçın ucun hörməzlər, Sarı gəlin,
Gülü qonçə dərməzlər, Sarı gəlin...

Qaravaş gördüyü mənzərəni xana danışdı. Xan yüz faiz əmin oldu ki, bağban onun sevgilisini görüb, ona aşıq olub, nəğmə qoşub. Əmr verib bağbanı zindana saldırdı. Sabahısı günü meydanda dar ağacı quruldu. Bağbanın boynuna kəndir keçirilərkən son dəfə söz deməyə möhlət istədi. Qanuna görə ölümə məhkum olunmuşun son söz deməyə ixtiyarı vardı. Xan onun xahişini qəbul etdi. Bağban yanıqlı bir ah çəkib bağda oxuduğu nəğməni təkrarlamaq istədi. Lakin nəğmə bitər-bitməz kəndir onun boğazında idi...

Bağbanın nəğməsi isə el arasında o gündən bu günümüzə qədər yaşayır:

**Saçın ucun hörməzlər,**
**Sarı gəlin,**
**Gülü qoncə dərməzlər,**
**Sarı gəlin...**

***Rəvayətlərə əsasən***
***qələmə aldı:***
***Rəciyyə MEYFULLAQIZI.***


## Bütün iş adamlarına, vətəndaşlara!

*"Qəbələ" qəzetinin reklam xidməti sizinlədir*

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və xoş duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da qəzet sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.


## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı aparatının kollektivi icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya**, qardaşı

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov və xəstəxananın kollektivi rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya**, qardaşı

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

Dövlət İdarələri İctimai Xidmət İşçiləri Həmkarlar Komitəsinin sədri Fərman Hacıyev rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya**, qardaşı

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

Qəbələ qəzetinin kollektivi rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya**, "Qəbələ" qəzetinin redaktoru **Oqtay Məmmədova**, yaxınları

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-Qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Bünyad Cavadova**, qaynatası

**SABİR ABDULLAYEVİN**

faciəli vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-Qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Elşad Kərimova**, həyat yoldaşı

**AYGÜN XANIMIN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru Xalis Məmmədov muzeyin keçmiş əməkdaşları **Rəhilə Əsgər qızına** və **Natiq Xalid oğluna**, əzizləri

**MÜSLÜM XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon təşkilatının aparat işçiləri partiyanın Xırxatala ilk təşkilatının sədri **Rəfail Abdullayeva**, qardaşı

**ƏLİAĞA ABDULLAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**

*Məsul növbətçi:*
*N. R. Atakişiyev.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.**
**Lisenziya AV № 022611**

**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149**
**VÖEN: 4400103601**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**

**Oxucu məktubları geri qaytarılmır.**